# Azərbaycanın müstəqilliyini reallaşdıran qayıdış

**Müstəqil Azərbaycanın tarixi ulu öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Dünyaşöhrətli siyasi xadim, ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısında xidmətləri əvəzsizdir. Ulu öndərin 1993-cü ildə hakimiyyətə qayıdışı Azərbaycanın xilasına, müstəqilliyinin qorunmasına, ölkənin strateji inkişaf kursunun hazırlanaraq həyata keçirilməsinə səbəb olmuşdur.**

Müstəqil dövlət qurmaq xoşbəxtliyi yalnız öz içərisində güclü şəxsiyyət, qüdrətli lider yetişdirmiş xalqlara nəsib olur. Bu, tarixin sınağından çıxmış gerçəklikdir. Həyatda elə əlamətdar günlər, hadisələr var ki, ölkənin, milyonlarla insanın taleyində, müqəddəratında həlledici rol oynayır. Bütöv bir xalqın yaddaşında əbədi həkk olur, tarixinə qızıl hərflərlə yazılır. Azərbaycan üçün 1993-cü il iyunun 15-i məhz belə tarixlərdəndir. Həqiqətən də, həmin gün ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə qayıdışı, dövlətçiliyimizin xilas anının başlanğıcı—Milli Qurtuluş Günüdür.

22 il bundan əvvəl, yəni 1993-cü ilin iyun ayının əvvəlində ölkəmizdə cərəyan edən hadisələr hər birimizin yadındadır. Həmin vaxt Azərbaycan dövlətçiliyi və müstəqilliyi görünməmiş təhlükə qarşısında idi. Siyasi və iqtisadi böhranla üzləşmiş ölkəmizdə vəziyyət olduqca ağır idi. Azərbaycan öz tarixinin çox çətin dövrünü yaşayırdı. Ölkəmiz elə vəziyyətə düşmüşdü ki, bir daha dirçəlməyimizə gümanımız yox idi, Azərbaycanın bir dövlət kimi mövcudluğu şübhə altına düşmüşdü. Elə bir xaos, özbaşınalıq şəraiti yaranmışdı ki, bundan baş çıxarmaq hər kəsin işi deyildi. Yaxın gələcəkdə respublikada sabitliyin bərpa olunacağına ümid yox idi. Xalq daha ağır günə düşə bilərdi. Daha bir addım bəs idi ki, xalq dərin uçuruma yuvarlansın. Problemlər baş alıb gedirdi. Həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi.

Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu nadir insanda var idi, ümidlər yalnız ona idi. Ölkədəki özbaşınalıqdan cana yığılan, belə yaşayışın mümkünsüzlüyünü dərk edən xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyin nicatını ancaq böyük şəxsiyyət və siyasətçi Heydər Əliyevdə görərək onu təkidlə Bakıya dəvət etdi. Xalqın çağırışına heç vaxt biganə qalmayan ulu öndərimiz 1993-cü il iyunun 9-da Naxçıvandan respublika paytaxtına gəldi və iyunun 15-də Ali Sovetin sədri seçildi. Həmin gün müstəqil dövlətçilik tarixinin ikinci dövrü başlandı. Ölkə onu gözləyən fəlakətlərdən, daxili və xarici antiazərbaycan qüvvələrin qəsdlərindən, vətəndaş müharibəsindən, torpaqlarımızın işğal edilməsindən, əsası isə, dövlətçiliyin məhvindən xilas oldu.

Ulu öndərin ürəyi həmişə, hər zaman doğma Azərbaycanla döyünmüşdür. Ən ağır zamanlarda belə xalqının yanında olmuş, onun səsinə səs vermişdir. Heydər Əliyev böyük xilaskardır. Öz vətənini və xalqını sonsuz məhəbbətlə sevən, andına sadiq olan, qətiyyəti, inamı, müdrikliyi ilə milyonları öz ətrafında birləşdirmiş Heydər Əliyev kimi vətənpərvər insan, güclü siyasətçi, müdrik rəhbər xalqlara tək-tək nəsib olan şəxsiyyətlərdəndir.

Azərbaycanın çox zəngin və şərəfli tarixi var. Bu tarix öz yaddaşında xalqın taleyini müəyyənləşdirmiş nadir şəxsiyyətləri əbədi yaşadır. Heydər Əliyev onların ən görkəmlisi, ən qüdrətlisidir. Təkcə Azərbaycanın deyil, bütün dünyanın taleyinə həlledici təsir göstərən nəhəng siyasətçilər və dövlət xadimləri arasında Heydər Əliyev öz dühası, müdrikliyi ilə xüsusi yer tutmuş, hələ sağlığında ikən əfsanəyə dönmüş, bəşəri miqyasda tanınmışdır.

Heydər Əliyevin adı və şərəfli həyatı öz Vətəninə, xalqına məhəbbətin təkrarsız təcəssümü, millətə və dövlətə xidmətin misilsiz nümunəsi kimi əsrlər boyu yaşayacaq. Azərbaycanın indiki, eləcə də gələcək nəsilləri üçün əbədi örnək olacaqdır. Ulu öndər canından çox sevdiyi xalqına möhkəm dövlətçilik təsisatlarına malik demokratik və bəşəri dəyərlərə sadiq, dünya birliyində layiqli yer tutan müasir, müstəqil Azərbaycan bəxş etdi. Ən yeni tariximizin 35 ildən artıq bir dövrü onun şərəfli adı, nəhəng siyasi fəaliyyəti ilə bilavasitə bağlıdır. Bu illərdə ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi, xalqımızın müasir milli dəyərlərinin formalaşması Heydər Əliyev dühasının bəhrəsidir. Biz çox xoşbəxtik ki, qismətimizə onun kimi dahi və nadir şəxsiyyətlə, qüdrətli lider və dövlət rəhbəri ilə eyni dövrdə yaşamaq səadəti düşmüşdür. Heydər Əliyevin ilk dəfə respublika rəhbəri seçildiyi dövrdə Azərbaycanın sosial-iqtisadi, ictimai-mədəni həyatı dərin tənəzzül keçirirdi. Heydər Əliyevin rəhbərliyə gəlişi ilə respublikada böyük dirçəliş, işgüzarlıq və yaradıcılıq əhval-ruhiyyəsi yarandı. Hər yerdə geniş quruculuq işləri başlandı, durğunluq aradan qalxdı, qısa vaxtda Azərbaycan keçmiş ittifaqın davamlı inkişaf edən respublikasına çevrildi.

O illərdə yolumuz İttifaqın hansı guşəsinə düşürdüsə-düşsün, hamının —rəhbər işçilərin də, sıravi insanların da Heydər Əliyevin fəaliyyəti haqqında necə heyranlıqla danışdığının şahidi olurduq. Təsadüfi deyil ki, Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyi beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyası hələ 1970-1980-ci illərdə təməli Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır. Bu gün təkcə xalqımız deyil, həm də dünya şöhrətli siyasətçilər, tarixçilər və politoloqlar ümummilli liderimiz Heydər Əliyevi müasir, müstəqil Azərbaycan dövlətinin həqiqi memarı və yaradıcısı sayır.

Bu gün Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq, müstəqil bir dövlət kimi formalaşması böyük öndərimizin titanik siyasi fəaliyyətinin nəticəsidir. Bu müdrik və uzaqgörən siyasətçinin, nəhəng dövlət xadiminin hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycan ağır bəlalardan, vətəndaş qarşıdurmasından qurtuldu, dirçəliş və tərəqqi yoluna çıxdı. Heydər Əliyevin on illik prezidentliyi dövründə milli dövlətçiliyimiz elə bir səviyyəyə çatdı ki, müstəqil Azərbaycan ümumilikdə regional təhlükəsizliyin təminatçısına çevrildi.

Heydər Əliyevin şəxsiyyətinin və siyasi fəaliyyətinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsi, adının bəşər tarixində əbədi iz qoymuş dövlət xadimləri ilə bir sırada çəkilməsi bizim üçün hədsiz qürur və iftixar mənbəyidir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan tarixindəki rolu haqqında dünya siyasətinin tanınmış simalarından olan Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəl demişdir: “Çörçill ingilis millətinə 40 il xidmət etdi, ancaq bu xidmətin sonunda, 1940-cı ildə lazım oldu. O zaman Çörçillin edəcəyi xidməti göstərəcək adam yox idi. Bəşər tarixində insanlar hər zaman millətinə xidmət edir, ancaq bəzən lazım olurlar. Ruzveltin 1942-ci ildə, de Qollun 1958-ci ildə, Adenauerin 1946-cı ildə lazım olduğu kimi... Heydər Əliyev Azərbaycan millətinə çox xidmət etmişdir, amma 1993-cü ildə lazım idi. Onun gördüyü işi görəcək başqa heç kim yox idi. Yaxşı ki, o vardı!..”

Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətini yaratdı, onun işlək idarəçilik mexanizmini formalaşdırdı. Ulu öndər, ümumən bəşəriyyətə Azərbaycan adlı, işıqlı ideallar yaşayan, demokratiya və insanlıq prinsiplərinə sadiq, yeni dünya düzənində öz layiqli yeri olan bir dövlət qazandırdı. Öz şərəfli və möhtəşəm fəaliyyəti ilə doğma Vətəninin və xalqının adını əlçatmaz zirvələrə ucaltmış ulu öndər Heydər Əliyev daim böyük qürur hissi ilə deyirdi: “Mən azərbaycanlı olmağımla fəxr edirəm!”

Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun şah əsəri olan müstəqil dövlətimizin daha da çiçəklənməsi, qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir.

Bu gün respublikamız ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurla inkişaf edir. Ölkəmizin iqtisadi artımı həyatımızın bütün sahələrinin inkişafına güclü təkan verir. Qeyri-neft sektorunun inkişafı, xarici siyasətdə qazanılan möhtəşəm nailiyyətlər ölkəmizin dünyadakı nüfuzunu daha da artırır. Biz hamımız ulu öndərimizin əziz xatirəsini bir daha minnətdarlıq hissi ilə yad edir, onun ideyalarının həmişə yaşarlığına inanırıq. Bizə qurtuluş bəxş etmiş ulu şəxsiyyətin, Azərbaycan xalqının dahi oğlunun pak əməlləri, müqəddəs ideyaları, arzuları və vəsiyyətləri həmişə yaşayacaqdır.

**Hüseyn SEYİDOV,**
**respublikanın əməkdar kənd təsərrüfatı işçisi.**